# Roma şəhərinin meri Azərbaycana təşəkkür edib

Roma şəhərinin tarixi ərazisi olan Fori İmperialidə yerləşən Via Alessandria küçəsində arxeoloji qazıntı işlərinin tamamlanması və həmin işlər vaxtı aşkarlanmış heykəltəraşlıq və memarlıq tapıntılarının təqdimatı ilə bağlı Roma şəhərinin meri Vircinia Racci, Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə və şəhərin digər rəsmilərinin iştirakı ilə Romanın məşhur Mercati di Traiano muzeyində mətbuat konfransı keçirilib.

Mətbuat konfransında Roma şəhərinin meri Vircinia Racci Via Alessandria küçəsində həyata keçirilmiş arxeoloji qazıntı işlərinin tamamlanması və onun nəticəsi olaraq nadir heykəltəraşlıq və memarlıq əsərlərinin tapılmasının Roma şəhərinin həyatında böyük hadisə olduğunu bildirib və müvafiq arxeoloji qazıntı işlərinin həyata keçirilməsinə göstərdiyi dəstəyə görə Azərbaycan Respublikasına dərin təşəkkürünü bildirib.

Qeyd etmək lazımdır ki, müvafiq mətbuat konfransı Roma şəhərinin sosial şəbəkə profillərində canlı yayımlanıb, eləcə də mətbuat konfransı, xüsusilə də qazıntı işlərinin Azərbaycanın dəstəyi ilə həyata keçirilməsi və M.Əhmədzadənin müvafiq fikirləri İtaliyanın çoxsaylı kütləvi informasiya vasitələri, o cümlədən “Tgcom.24.mediaset”, “Artribune”, “Lavorolazio”, “Prima Press”, “İl Corriere della Citta”, “Abitarearoma”, “World Magazine”, “Il Tempo”, “Musei in Roma”, “AGI”, “Artslife, Meteoweb”, “Giornale Diplomatico”, “TgTourims”, “Roma Repubblica”, “MSN”, “Radio Roma Italia Sera”, “Italia Star Magazine”, “Terzo Binario”, “Periodically”, “Roma Today”, “Il Messaggero” və sair kimi mətbuat orqanları tərəfindən işıqlandırılıb.